**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**
**------------------------------------------------------------------------------------**
**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

==============================================

*Əlyazması hüququnda*

**VƏFA QƏNBƏR QIZI ABDULLAYEVA**

# ÖLKƏNIN ƏRZAQ TƏMINATININ YAXŞILAŞDIRILMASINDA KƏND TƏSƏRRÜFATININ INVESTISIYALAŞDIRILMASININ ROLU

**5312.01 – "Sahə iqtisadiyyatı"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2013**

Dissertasiya işi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Rəsul Ənvər oğlu Balayev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Gəncəli Əziz oğlu Gənciyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Məhərrəm Qara oğlu Cəlilov**

**Aparıcı təşkilat:** **AMEA-nn İqtisadiyyat İnstitutu**

Müdafiə «29» mart 2013-ci il saat $14^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxana-sında tanış olmaq olar.

Avtoreferat «26» fevral 2013-ci ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **V.T.Əmrahov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Bazar münasibətləri şəraitində yeni istehsal-iqtisadi əlaqələrin səmərəli şəkildə formalaşdırılması və düzgün inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb edir. Ölkə iqtisadiyyatının müxtəlif sahələrində olduğu kimi, aqrar sahədə də birgə məqsədləri həyata keçirmək üçün iştirakçıların səmərəli əməkdaşlığına və resursların könüllü birləşdirilməsinə əsaslanan kooperasiya prosesini, ondan kənarda təsəvvür etmək mümkün deyildir. Əslində, kooperasiyaya əsaslanan iqtisadi inteqrasiya və əlaqələr – aqrar sahədə məhsul istehsalı, tədarükü, emalı, saxlanması və istehlakçılara çatdırılması istiqamətində iqtisadi fəaliyyətin, sahədaxili bölmələrin yaxınlaşması, uzlaşdırılması, həmçinin bir-birinə istehsal və iqtisadi cəhətdən uyğunlaşması prosesidir.

Ümumiyyətlə, istehsal-iqtisadi əlaqələrin mahiyyətini nəzərdən keçirərkən aydın olur ki, onlar maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı prosesində obyektiv surətdə insanlar arasında baş verən ictimai proseslərdir. Bu münasibətlərin məcmusu cəmiyyətin iqtisadi bazisini təşkil edir. İqtisadi bazis isə öz növbəsində siyasi, hüquqi, üstqurumu, ictimai təfəkkür formalarını və cəmiyyətin ictimai qurumunu əmələ gətirir.

Aqrar sahənin inkişafının mövcud durumunun təhlili göstərir ki, bu gün müxtəlif mülkiyyət formalarına əsaslanan çoxnövlü təsərrüfat qurumlarının yaradılması və inkişafı aqrar bazar münasibətlərinin səmərəli fəaliyyətinə şərait yaradır. Lakin bu istiqamətdə bir sıra ciddi çatışmazlıqlar da mövcuddur. Məsələn, aqrar təsərrüfat subyektlərinin əksəriyyətinin maddi-texniki bazasının və kredit resurslarından istifadə imkanlarının aşağı olması, həmçinin istehsal – iqtisadi fəaliyyəti təşkil etməyə vəsaitlərin çatışmaması kimi amillər çox vaxt kənd təsərrüfatı qurumlarının öz iqtisadi fəaliyyətlərini zərərlə başa vurmasına, bəzən isə hətta müflisləşməsinə səbəb olur.

Aparılan tədqiqatlardan bəlli olur ki, müasir dövrdə aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsi təsərrüfatçılığın düzgün iqtisadi mexanizminin formalaşmasından, o cümlədən istehsal-iqtisadi və kooperasiya əlaqələrinin genişləndirilməsindən çox asılıdır. Bu proseslərin həyata keçirilməsində bir sıra amillər, xüsusən də maliyyə-bank sistemi mühüm rol oynayır. Düzdür, son illərdə dövlətin aqrar sahəyə ayırdığı maliyyə yardımlarının həcmi genişlənmiş, kənd təsərrüfatı məhsulları istehsalçılarına və emalçılarına verilən bank vəsaitləri artmışdır.

Lakin etiraf edilməlidir ki, aqrar sahənin dayanıqlı inkişafında, o cümlədən kooperasiyaya əsaslanan istehsal-iqtisadi əlaqələrin qurulmasında böyük rol oynayan maliyyə-bank sistemi ləng formalaşır. Qeyd olunduğu kimi, kənd təsərrüfatında fəaliyyət göstərən müxtəlif təsərrüfat subyektləri və torpaq istifadəçiləri tam yetərli şəkildə maliyyə – bank vəsaitləri, müxtəlif güzəştli kreditlər və ilkin dövriyyə vəsaitlərini əldə edə bilmirlər. Əksər hallarda müxtəlif təbii fəlakətlər və maliyyə vəsaitlərinin çatışmazlığı ucbatından zərərlə başa gələn təsərrüfat fəaliyyəti subsidiyalaşdırılmır.



Bu baxımdan, həm yuxarıda göstərilən məsələlərin həlli istiqamətində, həm də aqrar sahədə istehsal-iqtisadi və kooperasiya əlaqələrinin qurulmasında yaranmış vəziyyət bu sahədə təminatlı maliyyə-bank sisteminin qurulmasını tələb edir. Bütün bunlar isə dissertasiya mövzusunun tədqiqat obyekti kimi seçilməsini şərtləndirmiş və zəruri etmişdir.

**Problemin öyrənilməsi səviyyəsi**. Müşahidələr göstərir ki, aqrar sahədə istehsal-iqtisadi və kooperasiya əlaqələrinin formalaşmasında maliyyə-bank sistemi mühüm rol oynayır. Bunu aqrar iqtisadiyyatı inkişaf etmiş xarici ölkələrin təcrübəsi də sübut edir.

Bütövlükdə aqrar sahədə istehsal-iqtisadi və kooperasiya əlaqələrinin tədqiqi məsələləri xarici və yerli iqtisadçı alimlərin uzunmüddətli tədqiqat obyektlərindən hesab olunur. Azərbaycan Respublikasında bu məsələlər Z.Ə.Səmədzadə, İ.H.Alıyev, A.F.Musayev, M.M.Sadıqov, Ə.Ç.Verdiyev, B.X.Ataşov, A.T.Əhmədov, A.M.Məhərrəmov, G.Ə.Gənciyev, S.V.Salahov, İ.H.İbrahimov, V.M.Niftullayev, A.H.Babayev və digər iqtisadçı alimlərimiz tərəfindən tədqiq olunmuş və olunmaqdadır. Keçmiş SSRİ məkanına daxil olan müstəqil dövlələrin alimlərindən L.İ.Abalkin, V.A.Boqomolov, İ.J.Boqdanov, A.V.Qorduuv, V.S.Zaqaşvili, N.A.Popov, L.Velikova, E.V.Serova və digərləri öz əsərlərində istehsal-iqtisadi əlaqələr və kooperasiyanın inkişafı, həmçinin aqrar sahənin bazar mexanizminə uyğunlaşdırılması və ərzaq təhlükəsizliyinin aktual məsələlərini dərindən araşdırılmış, mühüm praktiki əhəmiyyət kəsb edən elmi nəticələr əldə etmişlər.

Tədqiqat mövzusunda qarşıya qoyulan məqsəd və vəzifələrə uyğun olaraq, yuxarıdakı alimlərin fikir və tövsiyələrinə hörmətlə yanaşılmış və bəzən istinad edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi – yeni iqtisadi münasibətlər şəraitində aqrar sahədə istehsal-iqtisadi və kooperasiya əlaqələrinin formalaşmasının nəzəri-metodoloji məsələlərinin tədqiq edilməsi və mövcud durumunun təhlili, həmçinin bu sahədə istehsal-kooperasiya əlaqələrinin qurulmasında maliyyə-bank sisteminin rolunun təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyə-

lərin işlənib hazırlanmalıdır.

Yuxarıda göstərilən istiqamətlərdə qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi məqsədəuyğun hesab edilmişdir:

- istehsal-iqtisadi əlaqələrin qurulması prosesinin mahiyyəti, prinsipləri və əsas istiqamətləri araşdırılmışdır;
- bazar münasibətləri şəraitində istehsal-iqtisadi əlaqələrinin kooperasiya səviyyəsində inkişafının zəruriliyi və xüsusiyyətləri əsaslandırılmış, onun inkişafi prosesi dərindən təhlil edilmişdir;
- aqrar sahənin inkişafının müasir vəziyyəti ətraflı tədqiq olunmuş, bu sahədə kooperasiya əlaqələrinin inkişafının mövcud durumu, inkişafı və təkmilləşdirilməsi istiqamətləri ətraflı şərh edilmişdir və s.

**Tədqiqatın obyekti** – aqrar sahədə mülkiyyət for-masından asılı olmayaraq fəaliyyət göstərən müxtəlif təsərrüfat subyektləri, o cümlədən kooperasiya və maliyyə-bank fəaliyyəti ilə məşğul olan qurumlardır.

**Tədqiqatın predmeti** – aqrar sahədə istehsal-iqtisadi və kooperasiya əlaqələrinin səmərəli qurulması və bu prosesdə maliyyə-bank sisteminin təkmilləşdirilməsi məsələləridir.

**Tədqiqatın nəzəri-metodoloji əsaslarını** aqrar-ərzaq kompleksinin, kooperasiya münasibətlərinin inkişafına həsr edilmiş qanunlar, qanunverici (fərman, sərəncam, qərar) aktlar və digər normativ-hüquqi sənədlər, həmçinin bu məsələlərlə bağlı müvafiq tədqiqatlar aparmış yerli və xarici ölkə alimlərinin əsərləri təşkil edir.

Dissertasiya işində iqtisadi təhlil, statistik, müqayisə, müşahidə, dialektik üsullardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Dissertasiyanın informasiya bazasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Azərittifaq, həmçinin Kənd Təsərrüfatı və Maliyyə Nazirliklərinin, Mərkəzi Bankın və digər müxtəlif iqtisadi qurumların statistik hesabatları və digər materialları, bu istiqamətdə müvafiq elmi-tədqiqat institutlarının həyata keçirdikləri iqtisadi tədqiqatların nəticələri, əldə etdikləri təklif və tövsiyələr təşkil edir.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

Dissertasiya mövzusunun elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- bazar münasibətləri şəraitində aqrar sahədə istehsal-iqtisadi və kooperasiya əlaqələrinin qurulması və inkişafının nəzəri metodoloji əsasları (prinsipləri, xüsusiyyətləri və digər istiqamətlər) elmi cəhətdən əsaslandırılmışdır;
- aqrar sahədə istehsal-iqtisadi formalaşmasının müasir vəziyyəti kompleks təhlil edilmiş və qiymətləndirilmiş, həmçinin tədqiq olunan istiqamətdə mövcud dünya təcrübəsi ətraflı öyrənilmiş və əldə edilən müsbət nəticələrin ölkəmizdə tətbiqi imkanları müəyyənləşdirilmişdir;
- istehsal-iqtisadi ələqalərin kooperasiya səviyyəsində inkişafının zəruriliyi və istiqamətləri müəyyən edilmişdir;
- aqrar sahədə istehsal-kooperasiya əlaqələrinin təkmilləşdirilməsi istiqamətində, bu sahədə dövlət tənzimlənməsi və himayəsinin gücləndirilməsi istiqamətləri müəyyən edilmişdir;
- istehsal-kooperasiya əlaqələrinin qurulmasında maliyyə-kredit təminatının yaxşılaşdırılması imkanları aşkar edilmişdir;
- əldə edilən tədqiqat nəticələrinə uyğun olaraq, kənd təsərrüfatında istehsal-iqtisadi əlaqələrin kooperasiya səviyyəsində inkişafının sürətləndirilməsi istiqamətində müvafiq təklif və tövsiyələr hazırlanmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Aparılmış tədqiqatlarla bağlı əldə edilən nəticələr və irəli sürülən əməli təkliflər aşağıdakı məsələlərin həyata keçirilməsinə əlverişli şərait yaradır:

- aqrar sahədə istehsal-kooperasiya əlaqələrinin səmərəli fəaliyyətini təmin edən müxtəlif mülkiyyətli qurumların məqsədyönlü iqtisadi mexanizminin formalaşdırılması;
- bu istiqamətlərə uyğun dövlətin tənzimləyici tədbirləri və yardımlarının daha şəffaf, zəruri ehtiyacı olan təsərrüfat subyektlərinin tələblərinə uyğun həyata keçirilməsi;
- aqrar sahədə istehsal-kooperasiya əlaqələrinin qurulmasında maliyyə-kredit təminatının səmərəliliyinin artırılması və xüsusən onun çevik mexanizminin daha da təkmilləşdirilməsi və s.

Tədqiqat zamanı əldə olunmuş əməli təkliflərin bir hissəsi geniş təhriri məruzə formasında əlaqədar qurumlara göndərilmiş və müvafiq cavab alınmışdır. Göstərilmişdir ki, irəli sürülən təklif və tövsiyələr böyük maraq doğurur və əməli fəaliyyətdə geniş istifadə ediləcəkdir.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Dissertasiyanın əsas müddəaları, o cümlədən kooperasiyaya əsaslanan istehsal-iqtisadi əlaqələrin inkişafı və təkmilləşdirilməsi ilə bağlı məsələlər müxtəlif səviyyəli elmi-praktik konfranslarda məruzə edilmiş, elmi məqalə və tezis formasında çap edilmişdir. Tədqiqat nəticəsində irəli sürələn təkliflər Gəncə Regional Elm Mərkəzi tərəfindən istifadə üçün qəbul edilmişdir (04.09.2012-ci il, 2012/01-32).

**Dissertasiyanın həcmi və quruluşu**. Dissertasiya işi, giriş, üç fəsil, nəticə, həmçinin istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla, kompüter yazısı ilə 142 səhifə həcmindədir.

Tədqiqat işində 13 cədvəl və 3 sxem verilmiş, istifadə edilən ədəbiyyat siyahısında isə 126 adda mənbə göstərilmişdir.

## TƏDQIQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, elmi yeniliyi, təcrübi əhəmiyyəti və s. göstərilmişdir.

Dissertasiya işinin birinci fəsli **«Ölkənin ərzaq təminatının və kənd təsərrüfatında investisiya proseslərinin elmi-nəzəri məsələləri»** adlanır. Burada əsasən Sahibkarlığın inkişafı sahəsində ərzaq təminatı sisteminin sosial-iqtisadi mahiyyəti, prinsipləri və strukturu, ərzaq təminatının maliyyə investisiya mexanizmi, kənd təsərrüfatında investisiya risklərinin idarə edilməsi araşdırılmışdır.

Qeyd edilir ki, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi, xüsusilə dərinləşməkdə olan qloballaşma proseslərinin gücləndiyi şəraitdə, hər bir ölkənin milli-təhlükəsizliyinin təmin edilməsində önəmli rol oynayır. Qeyd etmək lazımdır ki, artıq ərzaq məhsullarına olan tələbatına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi və bu baxımdan ərzaq təhlükəsizliyinin təmin edilməsi, bütövlükdə beynəlxalq münasibətlər sistemində kifayət qədər güclü təsir vasitəsinə çevrilmişdir.

Mütəxəssisləri apardıqları elmi-tədqiqatlarda ərzaq təminatı sisteminin etibarlılığı kimi əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində yerli ərzaq resurslarından istifadə edilməsi məsələləri xüsusilə öncüllük kəsb etməkdədir. Bundan əlavə ərzaq təminatının yaxşılaşdırılması baxımından ərzaq bazarında mövcud konyunktur dalğalanmaları, eləcə də idxalın həcmi, istehsalın stimullaşdırılması, daxili bazarın qorunması və bu kimi məsələlər də kifayət qədər aktuallıq kəsb edir. Qeyd etmək lazımdır ki, ölkənin ərzaq təminatını şərtləndirən faktorlar kifayət qədər kompleks xarakter daşıyır. Belə ki, ərzaq bazarında məhsulların qiymətlərinin səviyyəsi, əhalinin alıcılıq qabiliyyəti, dövlət tərəfindən ərzaq bazarına edilən müdaxilələrin səviyyəsi və onun hədləri, eləcə də istehsalın stimullaşdırılması istiqamətində həyata keçirilən yardım proqramları, kənd təsərrüfatının investisiyalaşdırılması, istehsalın intensivləşdirilməsi və digər bu kimi faktorlar müasir şəraitdə ərzaq təminatına əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. Qeyd etmək lazımdır ki, bazar münasibətləri şəraitində iqtisadiyyatın hədsiz dərəcədə liberallaşdırılması qloballaşma prosesinin ən mühüm elementini təşkil edir. Bu baxımdan dünya bazarında baş verən qiymət dalğalanmaları və konyunktur dəyişiklikləri hər bir ölkənin milli ərzaq bazarına da təsirsiz ötüşmür. Bu proses, xüsusilə idxaldan asılı ölkələrdə kəskin destruktiv təzahürlər doğurur. Belə ki, idxal edilən məhsulların yüksək qiymətlər hesabına ərzaq bazarına daxil olması və digər bu kimi amillər, eləcə də bu fonda əhalinin alıcılıq qabiliyyətinin aşağı olması, əhalinin real gəlirlərinin xərclənməsində ərzaq məhsullarının istehlakına yönəldilən xərclərin həcminin artması və digər bu kimi amillər ərzaq təminatı problemini aktuallaşdırır. Onu da nəzərə almaq lazımdır ki, müharibə şəraitində olan hər bir ölkə üçün ərzaq ehtiyatları fondunun yaradılması da mühüm əhəmiyyətə malikdir və bütün bunlar son nəticədə, dövlətin siyasi və iqtisadi suverenliyini, onun iqtisadi təhlükəsizliyini şərtləndirən mühüm bir amilə çevrilir.



Aparılan araşdırmalar göstərir ki, ölkənin ərzaq təminatının yaxşılaşdırılmasında başlıca faktor qida məhsullarına olan tələbatın ödənilməsində yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsinə nail olunmasıdır. Bu isə sahibkarlığın inkişaf etdirilməsinindən bilavasitə asılıdır. Beləliklə, müasir şəraitdə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin ən mühüm amili kimi ərzaq məhsullarına olan tələbatın ödənilməsində yerli sahibkarlıq qurumlarının rolunun artırılmasına nail olmaq mühüm vəzifələrdən biridir. Bu amilin yüksək önəm təşkil etməsi ərzaq məhsullarının fiziki və iqtisadi əlyetərliliyindən bilavasitə asılıdır. Aparılan tədqiqatlar göstərir ki, əhalinin tələbatında idxal məhsullarının xüsusi çəkisi kifayət qədər yüksəkdirsə və eləcə də idxalın strukturunda əsas qida məhsullarının həcmi önəmli rola malikdirsə, təbii ki, bu zaman fiziki və iqtisadi əlyetərlilik fakt amili kifayət qədər təklükəli və təhdid doğuran məsələyə çevriləcəkdir. Bu zaman bazarda baş verən konyunktur dalğalanmaları, eləcə də qiymətlərin səviyyəsinin yüksəlməsi, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə önəmli təhdid kimi çıxış edə bilər.

Ərzaq təminatı sistemi, kifayət qədər makroiqtisadi bir problem kimi şərtlənməkdədir. Bu isə onunla bağlıdır ki, ərzaq təminatı sistemində daxili bazarın çevik şəkildə qorunmaması ölkənin ərzaq idxalından asılılığın yaranmasına gətirib çıxarır. Məhz bunun nəticəsidir ki, bir sıra hallarda dünya bazarında ərzaq məhsullarının qiymətlərinin artması ölkənin ərzaq bazarına da təsirsiz ötüşmür. Xüsusilə yeyinti məhsullarına olan ehtiyacların ödənilməsində xaricdən gətirilən yeyinti məhsullarının rolu əhəmiyyətlə dərəcədə yüksəkdir. Bu isə ərzaq bazarında qiymət tərəddüdlərinin yaşanmasına və əhalinin yüksək qiymətə qida məhsulları əldə etməsinə səbəb olur. Odur ki, dünya ərzaq bazarında baş verən konyunktur dalğalanmalarından yerli ərzaq bazarını effektiv şəkildə müdafiə etmək məqsədilə, idxalı əvəz edən sahələrdə inkişafa nail

olunması vacib şərtlərdəndir.

Ölkənin ərzaq təminatı sisteminin etibarlı xarakter daşıması və eləcə də ərzaq təhlükəsizliyinin təmin edilməsinə istiqamətlənmiş tədbirlərin səmərəliliyi bu prosesin maliyyə təminatından bilavasitə asılıdır. Odur ki, ərzaq təminatı sisteminin maliyyə-investisiya mexanizminin formalaşdırılması, bütövlükdə kənd təsərrüfatında davamlı inkişafın təmin edilməsinə, əhalinin ərzaq məhsulları ilə tələbatının ödənilməsində yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsinə xidmət edir. Ərzaq təminatı sisteminin maliyyə-investisiya mexanizmləri, bir qayda olaraq mikroiqtisadi, həm də makroiqtisadi xarakter daşıyır. Ərzaq təminatının maliyyə-investisiya mexanizmlərinin mikroiqtisadi xarakteri kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə sağlamlaşdırılmasına xidmət edir və nəticə etibarilə onların müflisləşmə prosesindən qorunmasından da önəmli rol oynayır. Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrin praktikasında kənd təsərrüfatı əmtəə istehsalçılarının qorunmasına istiqamətlənmiş tədbirlər maliyyə sanasiyaları yolu ilə həyata keçirilir. Maliyyə sanasiyalarının tətbiqi, bir qayda olaraq, əmtəə istehsalçılarının iflas təhlükəsindən qorunmasında önəmli rol oynayır. Əmtəə istehsalçıları maliyyə baxımından sağlamlaşdırılır ki, bu da onların geniş təkrar istehsal rejimində fəaliyyət göstərməsi və bütövlükdə kənd təsərrüfatının dinamik inkişafında önəmli rol oynayır.

Ərzaq təminatı sisteminin maliyyə-investisiya mexanizminin makroiqtisadi xarakter daşıması isə dövlətin ərzaq ehtiyatları fondunun yaradılması ilə sıx bağlıdır. Fövqəladə situasiyalar, xüsusilə mühüm əhəmiyyətə malik olan ərzaq ehtiyatları fondu maliyyə-investisiya mexanizminin birləşdirilməsindən bilavasitə asılıdır. Məlum olduğu kimi dövlətin ərzaq resursları fonduna ərzaq məhsullarının tədarükü tədarük qiymətlərlə kənd təsərrüfatı və ərzaq məhsullarının alışını özündə əks etdirir. Bunun üçün isə, dövlət büdcəsindən zəruri maliyyə vəsaitlərinin ayrılması vacibdir.

Ərzaq təminatının maliyyə-investisiya mexanizmləri aşağıdakı arqumentlərlə səciyyələnir:

- ərzaq təminatının maliyyə-investisiya mexanizmi aqrar sahənin dinamik və rəqabətədavamlı inkişafının əsasını təşkil edir;
- ərzaq təminatının maliyyə-investisiya mexanizmi cəmiyyətdə sosial sabitliyin yüksəldilməsində önəmli rol oynayır və cəmiyyətin inkişafının sosial səviyyəsinin yüksəldilməsinin başlıca amili kimi çıxış edir;
- ərzaq təminatının maliyyə-investisiya mexanizmi dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsinin və eləcə də bütövlükdə iqtisadi təhlükəsizliyin təmin edilməsinin əsası kimi çıxış edir.



İnkişaf etmiş ölkələrin praktikası göstərir ki, ərzaq təminatının maliyyə-iqtisadi mexanizmi dövlətin aqrar siyasətinin prioritetləri çərçivəsində reallaşdırılır və bu istiqamətdə həyata keçirilən tədbirlərə aşağıdakıları şamil etmək olar:

- aqrar əmtəə istehsalçılarına dövlət yardımlarının göstərilməsi;
- investisiya və innovasiya siyasətinin reallaşdırılması;
- iqtisadiyyatın real sektorunda aqrar ərzaq kompleksində rəqabətə davamlı istehsalın formalaşdırılması;
- bank sektorunun aqrar sektorun maraqlarına uyğunlaşdırılması;
- kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələri arasında qiymət disparitetinin aradan qaldırılması;
- kənd təsərrüfatında sosial yardım institutlarının formalaşdırılması və onun səmərəliliyinin yüksəldilməsi.

Aparılan araşdırmalar göstərir ki, qloballaşma şəraitində aqrar sahənin inkişafı, ərzaq təminatının maliyyə-kredit mexanizminin formalaşdırılmasından və onun davamlı olaraq təkmilləşdirilməsindən bilavasitə asılıdır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi və xüsusilə aqrar regionların inkişaf etdirilməsi, bilavasitə kənd təsərrüfatında məqsədli dövlət yardımlarının həyata keçirilməsi ilə sıx əlaqədardır. Aqrar istehsalda investisiya proseslərinin dövlət tənzimlənməsi mexanizmlərinin reallaşdırılması bu sahədə əhəmiyyətli rol oynayır.

Dissertasiya işinin ikinci fəsli **«Ərzaq təhlükəsizliyinin və kənd təsərrüfatının investisiyalaşdırılmasının mövcud vəziyyətinin təhlili»** adlanır. Bu fəsildə ölkədə ərzaq təhlükəsizliyinin mövcud vəziyyəti və ona təsir edən amillər, əhalinin ərzaq təminatının yaxşılaşdırılması ilə kənd təsərrüfatının investisiyalaşdırılması arasında qarşılıqlı əlaqə təhlil edilmişdir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd təsərrüfatı məhsulları istehsalının artırılması ilə yanaşı, eyni zamanda yeyinti sənayesinin inkişaf etdirilməsindən də bilavasitə asılıdır. Yeyinti sənayesinin inkişaf etdirilməsi, nəticə etibarilə əhalinin hazır qida məhsullarına olan ehtiyacının ödənilməsi deməkdir. Qeyd etmək lazımdır ki, qida məhsullarının istehsalının artırılması emal müəssisələrinin modernləşdirilməsi ilə sıx əlaqədardır. Aparılan araşdırmalar göstərir ki, yeyinti sənayesi məhsullarının istehsal həcminin artırılması və onun rəqabətədavamlılığının yüksəldilməsi, müasir şəraitdə xüsusilə mühüm əhəmiyyətə malikdir. Bu onunla bağlıdır ki, daxili bazar kifayət qədər liberal şərtlərlə idarə olunur və məhz belə bir şəraitdə xarici ölkələrdən idxal olunan hazır qida məhsulları ərzaq bazarında önəmli xüsusi çəki təşkil edir və bu

məhsulun rəqabətədavamlılığı ilə sıx əlaqədardır. Belə ki, xaricdən gətirilən məhsulların qiymətlərinin aşağı olması nəticəsində istehlakçı tərəfindən həmin məhsulların reallaşdırılması həyata keçirilir ki, bu da ölkəmizdən valyutanın xaricə axınına gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, regionlarda emal sənayesinin inkişaf etdirilməsi, nəticə etibarilə adam başına yeyinti məhsulları istehsalının artırılmasına da əlverişli şərait yarada bilər. Adam başına yeyinti məhsulları istehsalının artırılması, nəticə etibarilə ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsinə əlverişli şərait yaratmaqla, ərzaq təhlükəsizliyinin təmin edilməsində önəmli rol oynayır. Əhalinin hər nəfərinə düşən əsas növ yeyinti məhsulları istehsalının mövcud vəziyyəti aşağıdakı cədvəldə öz əksini tapmışdır.

Cədvəl 1

Əhalinin hər nəfərinə düşən yeyinti məhsulları istehsalının mövcud vəziyyəti (kq)

| Məhsulların adı | İllər | | | | | | | Müqayisə olunan illərə nisbətən 2011-ci ildə, %-lə | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1995 | 2000 | 2005 | 2008 | 2009 | 2010 | 2011 | 1995-ci ilə nisbətən | 2000-ci ilə nisbətən |
| Taxıl və taxıl məhsulları | 116 | 200 | 248 | 281 | 332 | 218 | 265 | 2,2 dəfə | 132,5 |
| Kartof | 20 | 62 | 129 | 124 | 111 | 107 | 104 | 5,2 dəfə | 167,7 |
| Tərəvəz | 56 | 103 | 135 | 141 | 134 | 133 | 134 | 2,4 dəfə | 130,0 |
| Bostan | 6 | 35 | 43 | 47 | 47 | 49 | 53 | 8,8 dəfə | 151,4 |
| Meyvə | 43 | 63 | 75 | 82 | 81 | 82 | 85 | 1,9 dəfə | 134,9 |
| Ət | 11 | 14 | 18 | 20 | 20 | 28 | 29 | 2,6 dəfə | 2,1dəfə |
| Süd və süd məhsulları | 109 | 137 | 149 | 158 | 162 | 172 | 179 | 1,6 dəfə | 130 ,6 |
| Yumurta | 60 | 72 | 104 | 126 | 137 | 132 | 112 | 1, 8 dəfə | 155,0 |
| Balıq | 1,3 | 1,5 | 3,2 | 2,2 | 2,0 | 5,1 | 5 | 3,8 dəfə | 3,3 dəfə |

Cədvəlin məlumatlarından görünür ki, adambaşına taxıl istehsalı 1995-ci ilə nisbətən 2011-cu ildə 1,2 dəfə, kartof istehsalı 4,2 dəfə, tərəvəz məhsulları istehsalı 1,39 dəfə, bostan məhsulları istehsalı 7,8 dəfə, meyvə istehsalı 97,6 %, ət və ət məhsulları 1,6 dəfə, süd və süd məhsulları 64,2 %, yumurta istehsalı 86% , balıq istehsalı 2,8 dəfə



artmışdır. 1995-2011-ci illərin göstəricilərini müqayisə etsək respublikada adambaşına düşən taxıl istehsalı 116 kq-dan artaraq 265 kq-a çatmışdır. Kartof, tərəvəz, bostan istehsalı müvafiq olaraq 20 kq-dan 104 kq-a; 56 kq-dan 134 kq-a, 6 kq-dan 53 kq-a qədər artmışdır. 2000-ci ilə nisbətən 2011-cu ildə adambaşına taxıl istehsalı 32,5 %, kartof istehsalı 67,7 %, tərəvəz məhsulları istehsalı 30,0 %, bostan məhsulları istehsalı 51,4 %, meyvə istehsalı 34,9 %, ət istehsalı 2,07 dəfə, süd və süd məhsulları 30,6 %, yumurta istehsalı 86.6 %, balıq istehsalı 2,3 dəfə artmışdır.

Nəticə etibarilə tələbat və təklif arasındakı tarazlığın yaradılması əmtəə bazarında qiymətlərin səviyyəsinin sabitləşdirilməsinin başlıca ilkin şərti kimi çıxış edir. Bu baxımdan özünü təmin etmə səviyyəsinin yüksəldilməsi ölkənin strateji maraqlarının qorunmasının başlıca göstəricisi kimi şərtlənir. qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə əhalinin ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsinin yüksəldilməsinə nail olunmuşdur ki, bu da kənd təsərrüfatının sənaye əsaslarında keçirilməsindən, eləcə də məhsuldarlığın səviyyəsinin yüksəldilməsindən, elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin davamlı olaraq, istehsalda tətbiqindən və kənd təsərrüfatı əmtəə istehsalçılarının satış problemlərinin həllindən bilavasitə asılıdır. Əhalinin ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi aşağıdakı cədvəldə öz əksini tapmışdır.

Cədvəl 2

Əhalinin ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsinin dinamikası, kq

| Göstəricilər | 1995 | 2000 | 2005 | 2010 |
|---|---|---|---|---|
| Taxıl | 22,8 | 37,4 | 48,8 | 44,2 |
| Kartof | 20,1 | 68,1 | 131,8 | 108,9 |
| Bostan-tərəvəz | 43,0 | 91,9 | 125,0 | 127,8 |
| Meyvə-üzüm | 102,0 | 85,4 | 103,3 | 118,1 |
| Şəkər tozu | - | - | 33,3 | 103,2 |
| Ət məhsulları | 15,2 | 16,3 | 25,1 | 40,0 |
| Süd məhsulları | 29,7 | 35,5 | 40,9 | 47,1 |
| Yumurta | 21,1 | 24,0 | 36,7 | 46,5 |
| Balıq | 6,5 | 11,8 | 15,5 | 41,5 |
| Bitki yağı | 7,1 | 10,4 | 58,0 | 37,5 |

Cədvəlin təhlilindən belə qənaətə gəlmək olar ki, 2000-2005-ci illərdə taxıl istehsalının artması özünütəminat səviyyəsinin yüksəlməsinə də gətirib çıxarmışdır. Lakin 2010-cu ildə təbii şəraitin əlverişsiz keçməsi

səbəbindən məhsul istehsalının azalması özünütəmin səviyyəsinin də aşağı düşməsinə gətirib çıxarmışdır. Eyni tendensiyanı 2010-cu ildə kartofla ızünütəminat səviyyəsinin aşağı düşməsinə də aid etmək olar.

Təhlil göstərir ki, kənd təsərrüfatının investisiya cəlbediciliyinin aşağı olması iqtisadiyyatın digər sahələrinə investisiyaların həcminin artmasına gətirib çıxarmışdır. Adı çəkilən sahələrdə investisiya qoyuluşlarının kənd təsərrüfatını qabaqlama tendensiyaları aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 3

İqtisadiyyatın sahələri ilə müqayisədə kənd təsərrüfatına investisiya qoyuluşlarının nisbəti,%-lə

| İllər | Sənaye | Nəqliyyat-rabitə | Digər sahələr |
|---|---|---|---|
| 1995 | 23.53 | 2.67 | 23.33 |
| 1996 | 47.81 | 2.26 | 15.24 |
| 1997 | 161.48 | 9.63 | 54.23 |
| 1998 | 119.77 | 10.55 | 27.42 |
| 1999 | 52.07 | 12.03 | 18.34 |
| 2000 | 101.46 | 13.75 | 32.15 |
| 2001 | 99.51 | 15.84 | 23.14 |
| 2002 | 94.20 | 8.01 | 16.27 |
| 2003 | 85.60 | 11.27 | 9.66 |
| 2004 | 111.88 | 12.21 | 14.97 |
| 2005 | 102.45 | 16.44 | 20.74 |
| 2006 | 73.66 | 14.43 | 17.67 |
| 2007 | 18,87 | 3,06 | 7,03 |
| 2008 | 12,63 | 5,93 | 9,29 |
| 2009 | 12,10 | 6,44 | 8,81 |
| 2010 | 9,92 | 6,84 | 5,62 |
| 2011 | 12,2 | 6,46 | 9,0 |

Təhlil göstərir ki, kənd təsərrüfatının investisiya cəlbediciliyinin aşağı olması iqtisadiyyatın digər sahələrinə investisiyaların həcminin artmasına gətirib çıxarmışdır. Adı çəkilən sahələrdə investisiya qoyuluşlarının kənd təsərrüfatını qabaqlama tendensiyaları aşağıdakı cədvəldə göstərilmişdir. Cədvəlin təhlili göstərir ki, sənaye sektoruna investisiya qoyuluşları kənd təsərrüfatına investisiya qoyuluşlarını 1995-ci ildə 23,5 dəfə qabaqlamışdırsa, bu göstərici 2011-cu ildə 12,2 dəfə təşkil etmişdir. Sənaye sektoruna investisiya qoyuluşlarının kənd təsərrüfatını ən yüksək sürətlə qabaqladığı il 1997-ci il olmuşdur ki, bu ildə də kənd



təsərrüfatı ilə müqayisədə sənayeyə 161,5 dəfə çox investisiya yatırılmışdır.

Qeyd etmək lazımdır ki, nəqliyyat-rabitə sektorunda investisiya qoyuluşları 1995-ci ildə kənd təsərrüfatını 2,7 dəfə geridə qoymuşdursa 2011-ci ildə bu göstərici 6,5 dəfə təşkil etmişdir. Nəqliyyat-rabitə sektorunda investisiya qoyuluşlarının həcminin kənd təsərrüfatını üstələdiyi ən yüksək sürət 2005-ci ildə olmuşdur ki, bu da 16,4 dəfə təşkil etmişdir. Göründüyü kimi iqtisadiyyatın digər sahələrinə investisiya qoyuluşları kənd təsərrüfatını 1995-2011-cu illərdə müvafiq olaraq 23,3 – 9,0 dəfə qabaqlamışdır.

Statistik məlumatlardan göründüyü kimi kənd təsərrüfatına investisiya qoyuluşlarının olduqca cüzi xüsusi çəkiyə malik olması elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalata tətbiqi imkanlarını məhdudlaşdırır. Bu da istehsal sahəsində məhsuldarlığın azalmasına gətirib çıxarır ki, nəticədə kənd təsərrüfatında ümumi daxili məhsulun artım sürəti iqtisadiyyatın digər sahələrindən əhəmiyyətli dərəcədə geri qalır. Təhlil göstərir ki, kənd təsərrüfatında ayrı-ayrı məhsul növləri üzrə məhsuldarlıq səviyyəsinin faktiki və potensial hədləri arasında 2,5-3 dəfəyə qədər fərq mövcuddur. Bu isə hər il təxminən 2 dəfəyə qədər götürülməmiş məhsul deməkdir. Məlum olduğu kimi, investisiyalar gələcək dövrdə yaradılan məhsul deməkdir. Odur ki, kənd təsərrüfatına investisiya yatırımlarının artırılması davamlı inkişafın başlıca hərəkətverici qüvvəsini təşkil edir.

Kənd təsərrüfatının milli iqtisadiyyatda yerini qiymətləndirərkən bu sahəyə investisiya qoyuluşunu da nəzərə almaq lazımdır. Qeyd etmək lazımdır ki, 2000-ci illə müqayisədə 2011-cu ildə kənd təsərrüfatına investisiya qoyuluşu 67,2 dəfə artsa da iqtisadiyyata yönəldilən investisiyanın strukturunda bu sahənin xüsusi çəkisi 2011-cu ildə 3,4% təşkil etmişdir ki, bu da digər sahələrə nisbətən aşağı göstəricidir və qeyri-neft sektorunun tərkibində kənd təsərrüfatının zəif inkişafını xarakterizə edir (şəkil 1). İqtisadiyyata yatırılan 12799,1 mln manatlıq məcmu investisiyanın 41,9 %-nin, başqa sözlə 2515,7 mln manatı sənaye sektoruna, o cümlədən həmin investisiyanın 2956,3 mln manatı və ya 19,7 %-i nəqliyyat və rabitə yönəldilməsi, eləcə də sahənin investisiya cəlbediciliyinin aşağı olması sonda kənd təsərrüfatında dayanıqlı inkişaf imkanlarını məhdudlaşdırır .

Aparılan araşdırmalar göstərir ki, son illər kənd təsərrüfatı əmtəə istehsalçılarının kreditləşdirilməsində sahibkarlığı kömək milli fondunun resursları əhəmiyyətli rol oynayır. Sahibkarlığa Kömək Milli Fondunun resursları hesabına kənd təsərrüfatı əmtəə istehsalçılarının gü-

zəştli şərtlərlə kreditləşdirilməsi həyata keçirilir ki, bu kreditləşdirmə hesabına da kənd təsərrüfatında bitkiçiliyin və heyvandarlığın inkişafına kredit resursları ayrılır və eləcə də emal sənayesinin dəstəklənməsi həyata keçirilir. Artıq respublikamızın əksər bölgələrində kənd təsərrüfatının emal sənayesinin inkişaf etdirilməsi, eləcə də qarışıq yem zavodlarının tikilməsi, süd və ət emalı kombinatlarının yaradılması ilə bağlı kredit tranjları ayrılmışdır. Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına kənd təsərrüfatının kreditləşdirilməsinin mövcud vəziyyəti aşağıdakı cədvəldə öz əksini tapmışdır.




Şək. İqtisadiyyatın sahələri özrə əsas kapitala yönəldilmiş investisiya, %-lə.

Təhlil göstərir ki, 2009-2011-ci ilin birinci yarısı ərzində respublikanın iqtisadi rayonlarında fəaliyyət göstərən 4034 kənd təsərrüfatı əmtəə istehsalçısına və emal müəssisəsinə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 150110,3 mln manat məbləğində güzəştli kredit verilmişdir. Güzəştli kreditlərin verilməsi nəticəsində istehsal və emal sahələrinin genişləndirilməsi hesabına 11699 yeni iş yeri açılmışdır. 2009-2011-ci ilin birinci yarısı ərzində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilən 150110,3 mln manat güzəştli kreditin 42216,8 mln manatı 2009-cu ildə, 66001,9 mln manatı 2010-cu ildə , 41891,6 mln manatı 2011-ci ilin birinci yarım ili ərzində verilmişdir. 2009-cu ildə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğul olan 1958 təsərrüfat subyektinə 42216,8 mln manat, 2010-cu ildə isə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğul olan 1319 təsərrüfat subyektinə 66001,9 mln manat, 2011-ci ilin birinci yarımili ərzində isə kənd təsərrüfatı



məhsullarının istehsalı və emalı ilə məşğul olan 757 təsərrüfat subyektinə 41891,6 mln manat güzəştli kredit verilmişdir. Güzəştli kreditlər hesabına 2009-cu ildə 4658, 2010-cu ildə 4414, 2011-ci ilin birinci yarımili ərzində isə 2627 yeni iş yeri yaradılmışdır. 2009-2011-ci ilin birinci yarım ili ərzində 3988 kənd təsərrüfatı əmtəə istehsalçısına 105659,8 mln manat məbləğində güzəştli şərtlərlə kredit verilmişdir ki, bunun da nəticəsində 9637 ədə yeni iş yeri yaradılmışdır. Verilən kreditin 22573,3 mln manatı 2009-cu ilin payına düşür ki, bu kredit də 1939 kənd təsərrüfatı əmtəə istehsalçısına verilmiş və nəticədə 3418 yeni iş yeri yaradılmışdır. 2010-cu ildə 1303 kənd təsərrüfatı əmtəə istehsalçısına 55651,9 mln manat kredit verilmişdir ki, nəticədə də 3970 yeni iş yeri yaradılmışdır. 2011-ci ilin birinci yarım ili ərzində isə 746 kənd təsərrüfatı əmtəə istehsalçısına 27434,6 mln manat kredit verilməsi nəticəsində 2249 yeni iş yeri yaradılmışdır.

2007-2011-ci ilin birinci yarım ili ərzində kənd təsərrüfatı məhsullarının emalı sektorunda çalışan 46 təsərrüfat subyektinə 44450,5 mln manat məbləğində güzəştli kredit verilmiş və son nəticədə emal sektorunda 2062 ədəd yeni iş yeri yaradılmışdır. 2009-cu ildə emal sənayesində 19 təsərrüfat subyektinə 19643,5 mln manat kredit verilmiş və 1240 yeni iş yeri yaradılmışdır. 2010-cu ildə emal sektorunda 16 təsərrüfat subyektinə 10350 mln manat, 2011-ci ilin birinci yarım ili ərzində isə 46 təsərrüfat subyektinə 44450,5 mln manat güzəştli kredit verilmişdir. Verilən güzəştli kreditlər nəticəsində 2010-cu ildə emal sektorunda 444 yeni iş yeri, 2011-ci ilin birinci yarım ili ərzində isə emal sektorunda 2062 yeni iş yeri yaradılmışdır.

Dissertasiya işinin üçüncü fəsli **«Ərzaq təminatının yaxşılaşdırılmaşının və kənd təsərrüfatının investisiyalaşdırılmasının prioriotet istiqamətləri»** adlanır. Bu fəsildə əhalinin ərzaq təminatının tənzimlənməsində investisiya siyasətinin təkmilləşdirilməsinin, ərzaq təminatının yaxşılaşdırılmasında məqsədli investisiya proqramlarının rolu araşdırılmış, kənd təsərrüfatının maliyyə sağlamlaşdırılmasının və aqrar sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi istiqamətləri öyrənilmişdir.

Qeyd edilir ki, makroiqtisadi aspektdən yanaşdıqda əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması dövlətin iqtisadi və siyasi suverenliyinin qorunub saxlanılmasının başlıca vasitəsidir. Bu baxımdan dövlətin makroiqtisadi siyasəti fundamental əsasları əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına və istehsal fəaliyyəti üçün zəruri əlverişli şəraitin yaradılmasını özündə ehtiva edir. İnkişaf etmiş ölkələrin praktikasında əhalinin ərzaq təminatının yaxşılaşdırılmasının kifayət

qədər makroiqtisadi aspektdən yanaşılır və dövri olaraq ərzaq təminatının yaxşılaşdırılması istiqamətində proqramlar qəbul edilir. Bu proqramlardan istehsal və emal sənayesinin investisiyalaşdırılması ön plana çəkilir. Bu baxımdan ərzaq təminatının tənzimlənməsinin makroiqtisadi mexanizmində investisiya siyasəti və onun davamı olaraq təkmilləşdirilməsi ön plana çəkilməlidir.

Nəzərə almaq lazımdır ki, respublikamızın təbii-iqlim şəraiti onun iri həcmli kənd təsərrüfatı potensialına malik olmasını şərtləndirir. Bu məhz həmin kənd təsərrüfatının səmərəli istifadə edilməsi üçün investisiya qoyuluşlarına ehtiyac vardır ki, bu da ölkənin ərzaq təminatının yaxşılaşdırılmasına əhəmiyyətli töhfə ola bilər.

İnvestisiya siyasətinin təkmilləşdirilməsinə makroiqtisadi cəhətdən yanaşılmalıdır. Nəzərə almaq lazımdır ki, investisiya fəaliyyətinin aktivləşdirilməsi makroiqtisadi tarazlığa nail olunması, makroiqtisadi situasiyanın sabitləşməsinə istiqamətlənmiş tədbirlərin məcmusu kimi şərtlənir. Bu bir həqiqətdir ki, investisiya fəaliyyətinin aktivləşdirilməsi əhalinin alıcılıq qabiliyyəti tələbinin artırılmasına da əhəmiyyətli təsir göstərə bilər. İnvestisiya qoyuluşları, eyni zamanda əhalinin əmanətlərinin artırılmasına, onların gəlirlərinin yüksəldilməsinə və əhalinin qida məhsulları ilə istehlak səviyyəsinin yüksəlməsinə bilavasitə təsir göstərir.

Aparılan araşdırmalar göstərir ki, ərzaq təminatının tənzimlənməsi baxımından investisiya siyasətinin aktivləşdirilməsi, həm də dövlətin struktur siyasətinin reallaşdırılmasını tələb edir. Dövlətin struktur siyasətinin reallaşdırılması, azad rəqabət mühitində kənd təsərrüfatının iqtisadi davamlığının artırılmasına xidmət edir ki, bu da dövlət büdcəsindən kifayət qədər vəsait ayrılması ilə səciyyələnir. inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatına, nəinki birbaşa dövlət investisiyaları yönəldilməli, eyni zamanda kənd təsərrüfatına investisiya cəlbediciliyinin yüksəldilməsi hesabına kredit resursları və xüsusi investisiyaların da iqtisadiyyatın bu strateji əhəmiyyətli sahəsinə yönəldilməsinə əlverişli şərait yaradılmalıdır. Kredit resurslarının və xarici investisiyaların, eləcə də digər özəl investisiyaların kənd təsərrüfatına yönəldilməsi üçün kənd təsərrüfatı, vergi və digər güzəştlərlə təmin edilməlidir. Təbii ki, bütün bunlar kənd təsərrüfatında investisiyaya olan tələbin ödənilməsinə əhəmiyyətli təsir göstərə bilər. Yerli əmtəə istehsalçılarının texnoloji yeniliklərlə təmin edilməsi və eləcə də elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin davamlı olaraq istehsalda tətbiqi, bütövlükdə sahənin rəqabətə davamlılığının artırılmasına önəmli təsir göstərməklə yanaşı, kənd təsərrüfatının investisiya cəlbediciliyinin yüksəldilməsində də mühüm əhəmiyyətə malikdir. Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı ilə münasibətdə dövlətin proteksionist siyasətinin həyata keçirilməsi də vacib şərtlərdən biridir ki, bu da istehsalın stimullaşdırılmasına əlavə vasitə ola bilər. Müasir şəraitdə dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri, kənd təsərrüfatı əmtəə istehsalçılarının güzəştli şərtlərlə kreditləşdirilməsi və bu baxımdan dövlətin investisiya yönümlülüyünün güclənməsidir.



Aparılan araşdırmalar göstərir ki, investisiya layihələrini reallaşdırmaqla yanaşı, eyni zamanda ölkənin iqtisadi təhlükəsizliyinin mühüm tərkib hissəsi kimi ərzaq təhlükəsizliyinin qorunmasına xidmət edən fəaliyyət reallaşdırılır. Bu fəaliyyətin reallaşdırılması üçün iqtisadi və ərzaq təhlükəsizliyinin monitorinqinin həyata keçirilməsi və eləcə də iqtisadi təhlükəsizliyin iqtisadi səviyyədə dəstəklənməsi üçün müxtəlif mənbələrin tapılması da bu funksiyalar çərçivəsindədir. İnkişaf etmiş ölkələrin təcrübəsindən göründüyü kimi dövlətin investisiya qurumlarının fəaliyyəti mütləq mənada şəffaf xarakter daşıyır. Adı çəkilən qurumların fəaliyyəti rüblük olaraq mətbuatda dərc edilir və kütləvi informasiya vasitələrində hesabatlar öz əksini tapır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, dövlətin investisiya siyasəti ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynamalıdır və bu baxımdan makroiqtisadi səviyyəsə aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruri hesab olunur:

- iqtisadi təhlükəsizliyi xarakterizə edən vahid göstəricilər sisteminin hazırlanması və qəbul edilməsi;
- yerli tədqiqatlara əsaslanmaqla, eləcə də inkişaf etmiş dünya ölkələrinin praktikasından istifadə etməklə, makroiqtisadi situasiyanın spesifik xüsusiyyətləri nəzərə alınmaq şərti ilə iqtisadi təhlükəsizliyi xarakterizə edən göstəricilərin mövcud durumu və onun dəyişmə meyllərini və eləcə də, bu sahədə mövcud proqnozların işlənib hazırlanması;
- iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə iqtisadi təhlükəsizliyi xarakterizə edən göstəricilərin ümumi səviyyəsinin konkretləşdirilməsi;
- iqtisadiyyatın hər bir sahəsi üzrə iqtisadi təhlükəsizliyi xarakterizə edən göstəricilərin hədd səviyyəsini eyniləşdirmək və onu hər sektora müvafiq olaraq monitorinq problemlərinin həllini təmin etmək;
- iqtisadi təhlükəsizlik, o cümlədən ərzaq təhlükəsizliyini doğuran daxili təhdid faktorlarının müəyyənləşdirilməsi və onun qiymətləndirilməsi;
- ərzaq təhlükəsizliyinin təmin edilməsinə neqativ təsir göstərən amillərin müəyyənləşdirilməsi;

- ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı göstəricilərin səviyyəsinin müəyyənləşdirilməsi və ərzaq təhlükəsizliyinin maliyyə təminatının müəyyənləşdirilməsi.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, inflyasiya meylləri, o cümlədən qlobal maliyyə böhranının destruktiv təzahürlərindən doğan hiper inflyasiya meylləri daxili ərzaq bazarına daha tez təsir göstərmək imkanına malikdir. Ümumiyyətlə, ərzaq bazarı daha çox inflyasiya idxalçısı" olan bir obyekt kimi səciyyələnir. Bu isə ondan irəli gəlir ki, ölkədə daxili tələbatın ödənilməsində yerli istehsalın xüsusi çəkisi aşağı olduqda, idxal kanallarından istifadə edilir ki, bu da ölkəyə daxil olan məhsulların yüksək qiymətə başa gəlməsi səbəbindən ölkədə inflyasiya proseslərinin yaranmasını şərtləndirir. Beləliklə, əslində isə xarici mühit faktorlarının effektiv şəkildə neytrallaşdırıla bilməməsi, kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə müflisləşməsi prosesini yaradır. Məhz bütün bunların qarşısını almaq, ölkənin ərzaq təminatını yaxşılaşdırmaq və eləcə də aqrar ərzaq bazarlarında əmtəə təklifinin həcmini artırmaq məqsədilə dövlət tərəfindən kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə sağlamlaşdırılmasına istiqamətlənmiş tədbirlər gerçəkləşdirilir. Dünyanın inkişaf etmiş ölkələrində kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə sağlamlaşdırılması ilə bağlı müvafiq maliyyə siyasəti tədbirləri həyata keçirilir.

Aparılan araşdırmalar göstərir ki, kənd təsərrüfatının maliyyə sağlamlaşdırılması davamlı inkişafın başlıca faktorlarından biri olmaqla, eyni zamanda aqrar istehsala investisiyaların cəlbediciliyinin yüksəldilməsində də əhəmiyyətli rol oynayır. Bu baxımdan kənd təsərrüfatı müəssisələrinin maliyyə sağlamlaşdırılmasının həqiqi mexanizminin təkmilləşdirilməsi üçün qanunvericilik bazasının təkmilləşdirilməsinə ehtiyac vardır. Bu məqsədlə aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- kənd təsərrüfatının çoxfunksiyalılığının təmin edilməsi istiqamətində əmtəə istehsalçılarının müflisləşməsinin qarşısının alınmasına yönəldilmiş məhdudiyyətlər sisteminin tətbiq edilməsi;
- maliyyə sağlamlaşdırılması çərçivəsində kənd təsərrüfatı müəssisələrinə investorların daxil olması ilə bağlı məsələlərin tənzimlənməsi;
- kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə sağlamlaşdırılması çərçivəsində dövlət yardımlarının əsas istiqamətlərinin müəyyənləşdirilməsi;
- kənd təsərrüfatı əmtəə istehsalçılarının maliyyə vəziyyətini müəyyənləşdirən göstəricilərin hesablanma metodikasının işlənib hazırlanması və təsdiq edilməsi.



Dissertasiya işinin **nəticə** bölməsində ölkənin ərzaq təminatının yaxşılaşdırılmasında kənd təsərrüfatının investisiyalaşdırılmasının rolu ilə bağlı elmi cəhətdən əsaslandırılmış təkliflər işlənib hazırlanmışdır.

Dissertasiya işinin mövzusu ilə bağlı müəllifin aşağıdakı məqalələri dərc edilmişdir.

1. Kənd təsərrüfatının inkişafında investisiyaların rolu.// Az.ETKTİ vəTİ-nun elmi əsərləri. Bakı 2009. №2. s.217-221.
2. Kənd təsərrüfatının investisiyalaşdırılmasının səmərəliliyi məsələləri //Az.ETKTİ vəTİ-nun elmi əsərləri. Bakı 2009. №1. s.221-224
3. Aqrar sahənin investisiyalaşdırılmasının əsas məqsədləri.// Az.ETKTİ vəTİ-nun elmi əsərləri. Bakı 2008. №5. s.235-239.
4. Специфика аграрной системы и ее влияние на формирование продовольственного рынка.// Достижения науки и техники АПК. Москва, № 05-2011. с. 14-16.
5. Совершенствование инструментария инвестиционной политики, регулирующего уровень продовольственной обеспеченности. //Экономика, финансы, исследования. Астана, №3(23) 2011. с.78-80.
6. Kənd təsərrüfatının investisiyalaşdırılmasının əhalinin ərzaq təminatının yaxşılaşdırılmasında rolu. //Azərbaycan Aqrar Elmi Jurnalı №3, Bakı, 2012. s. 125-127.
7. Aqrar sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi istiqamətləri. / Qloballaşma şəraitində təhsil və elmin inkişaf problemləri. Beynəlxalq elmi-praktik konfransın tezisləri. II cild. ADAU, Gəncə 2012.



## РЕЗЮМЕ

**Абдуллаева Вафа Ганбар кызы**

**Роль инвестирования сельского хозяйства в улучшении продовольственного обеспечения страны**

Во вводной части диссертации показана актуальность темы, состояние изученности проблемы, цели и задачи, объект и предмет исследования, научная новизна и практическое значение диссертационной работы.

Первый раздел диссертации называется «Научно-теоретические вопросы продовольственного обеспечения страны и инвестиционных процессов в сельском хозяйстве». Здесь в основном рассматриваются социально-экономическая сущность, принципы и структура системы продовольственного обеспечения в области развития предпринимательства, финансово-инвестиционный механизм продовольственного обеспечения, управление инвестиционными рисками в сельском хозяйстве.

Второй раздел диссертационной работы называется «Анализ состояния продовольственной безопасности и инвестирования сельского хозяйства в настоящее время». В этом разделе анализируется состояние продовольственной безопасности в стране в настоящее время и факторы, влияющие на него, взаимосвязь между улучшением продовольственного обеспечения населения и инвестированием сельского хозяйства.

Третий раздел диссертационной работы называется «Приоритетные направления инвестирования сельского хозяйства и улучшения продовольственного обеспечения». В этом разделе исследуется роль совершенствования инвестиционной политики в регулировании продовольственного обеспечения населения и роль целевых инвестиционных программ в улучшении продовольственного обеспечения, изучаются направления финансового оздоровления сельского хозяйства и повышения инвестиционной привлекательности аграрной отрасли.







## SUMMARY

**Abdullaeva Vefa Qanber**

**The role of investment in agriculture to improve food security of the country**

In the introductory part of the dissertation the relevance of the topic, the state of knowledge issues, goals and objectives, the object and subject of research, scientific novelty and practical significance of the thesis.

The first chapter of the dissertation "The country's food supply and agriculture research and theoretical issues in the investment process" is called. According to the nature of the socio-economic development of entrepreneurship in the food supply system, the principles and the structure of financial investment mechanism for food security, agriculture, investment, risk management was studied.

The second chapter of the dissertation, "An analysis of the current state of food security and agriculture investment" is called. In this chapter the current situation and the factors that influence food security in the country, investment in agriculture to improve food security for the interaction between the two was analyzed.

The third chapter of his dissertation work "to improve food security and agriculture prioriotet investisiyalasdırılmasının area" is called. Investment policy of this chapter to improve the regulation of the food supply, food supply explored the role of investment programs aimed at improving the agricultural sector, and the financial support of the agricultural sector to increase investment attractiveness of the area studied.




Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 206, tiraj 100

Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Абдуллаева Вафа Ганбар кызы**

# Роль инвестирования сельского хозяйства в улучшении продовольственного обеспечения страны

**5312.01 – «Экономика отрасли»**

**АВТОРЕФЕРАТ**

диссертации на соискание научной степени
доктора философии по экономики

**Гянджа – 2013**